

# Olimpiya Oyunları medalları: *tarixdən günümüzə*

***Olimpiya Oyunları beynəlxalq idman aləminin ən populyar və ən böyük beynəlxalq idman yarışlarıdır. Antik dövrdən günümüzədək gəlib çatmış bu nüfuzlu yarışlar geniş sosial - fəlsəfi məna kəsb edərək sülh və əmin-amanlığa xidmət edir.***

***Olimpiya Oyunları, təxminən, 12 əsr boyunca Qədim Yunan təqviminin idman, sosial və mədəni tarixi olub. Olimpiya müntəzəm olaraq dini mərasimlərin keçirildiyi, həm də Qədim Oyunlara ev sahibliyi edən müqəddəs bir yer olaraq yunan sivilizasiyasının mərkəzi idi. ABŞ-ın Dartmouth Kollecinin Qədim Yunanstan tarixi professoru Paul Christesen qeyd edir ki, Olimpiya Oyunları dini ziyarətgahda keçirilən bir festival idi. Eramızdan əvvəl – 776-cı ildən e.ə 550-ci ilə qədər oyunlar ziyarətgahın özündə keçirilirdi. Qələbə çələnglərinin kəsildiyi Zevsin müqəddəs zeytun ağacı bütün yarışların finiş xəttini göstərirdi.***

***Yunanları Olimpiya Oyunlarının çox böyük dəyər verdiyini anlamaq üçün Qədim Olimpiya Oyunlarının maraqlı faktlarına diqqət yetirək.***




*1908-ci ildə Londonda keçirilmiş Olimpiya Oyunlarının xalis qızıldan hazırlanmış medalı*

Eramızdan əvvəl 480-ci ilin yazında Yunanıstana hücumlar zamanı yunan şəhərləri müttəfiq bir ordu quracaqları barədə razılığa gəlsələr də, birləşməkdə çətinlik çəkiblər. Beləliklə, əslində, ölkəni müdafiə etmək, ordunu bir araya gətirmək üçün Olimpiyada yarışlar təşkil olunub.

İşğal təhlükəsi olmasa da, oyunlar hər dörd ildən bir keçirilirdi. Olimpiyaçıların əksəriyyəti əsgər olmasına baxmayaraq, bütün azad yunan kişilərin, təsərrüfat işçilərindən kral varislərinə qədər hamının yarışlarda iştirak etmələrinə icazə verilirdi. Qadınlar yarışda iştirak edə bilməzdilər. Qaydalara görə, yarışlarda atlılar deyil, arabaların sahibləri Olimpiya çempionu elan edilirdi və hər kəs arabaya sahib ola bilərdi. Sparta kralı II Arximedin qızı Kiniska bundan istifadə edərək, e.ə 396 və 392 -ci illərdə zəfər çələngi tələb etmişdi. O, tarixdə Olimpiya Oyunlarının qalibi olan ilk qadın heab olunur. Qədim Olimpiya Oyunlarında bütün idmançılar çılpaq yarışırdılar. Güləşçilər və pankration (boks və güləşi birləşdirən bir növ qarışıq döyüş sənəti) rəqibləri bədənlərinə yağ sürtərək mübarizə aparırdılar. Pankrationda yalnız iki qayda var idi – dişləmə və oyma. Boksda xal, vaxt məhdudiyyəti və çəki təsnifatı yox idi. Döyüş idman növündə idmançılar təslim olduqlarını şəhadət barmaqlarını qaldıraraq bildirməli idilər. Qədim Olimpiya Oyunları 1170 il davam etmişdi. Roma imperatoru I Feodosinin (eramızın 394-cü ilində) olimpiadaları ləğv etmək əmrinə qədər qədim Yunanıstanda 293 yarış keçirilmişdi.

Qədim Olimpiya Oyunlarının yarışlarında mükafatlar müxtəlif olurdu. Yunanıstan Milli Olimpiya Oyunlarında qaliblər böyük miqdarda qızıl sikkələr, dəyərli hədiyyələrlə təltif edilmiş, Herkules yabanı zeytun çələnginə layiq görülmüşdü. Kral Endimion yalnız oğullarının iştikak etdiyi Olimpiya Oyunlarında krallığını zəfər qazanana vermişdi.

Qədim Olimpiya oyunlarının bərpa olunması təşəbbüsünü XIX əsrin sonlarında fransız ictimai xadimi Baron Pyer de Kuberten təklif etmişdi. Onun dövründə Yay Olimpiya Oyunları kimi tanınan bu beynəlxalq tədbir 1896-cı ildən etibarən, dünya müharibələrinin baş verdiyi illər istisna olmaqla, hər 4 ildən bir keçirilir.

Olimpiya Oyunlarının yarışlarında şəxsi və ya komandada uğurlarına görə fərqlənən idmançılar olimpiya medalı ilə təltif olunurlar. Beynəlxalq Olimpiya Komitəsinin təsis etdiyi qızıl, gümüş və bürünc medallar müvafiq olaraq birinci, ikinci və üçüncü yerləri tutan idmançılara verilir. Mükafat qaydaları və əsas prinsiplər, Olimpiya Hərəkatının əsas sənədlər toplusunda - Olimpiya Xartiyasında öz əksini tapdı.

Birinci və İkinci Olimpiya Oyunlarında hər bir idman növü üzrə ilk iki yeri tutanlara medallar verilirdi. Qaliblər gümüş, ikinci yeri tutanlar isə bürünc medallarla mükafatlandırılırdı. Beynəlxalq Olimpiya Komitəsi tərəfindən müvafiq qərar qəbul edildikdən sonra üçüncü yeri tutan idmançılar mükafatlandırılmağa başlandı.

I Olimpiya Oyunlarının mükafat medalının ön tərəfində tanrıların atası Zevs və qələbə ilahəsi Nikanın, arxa tərəfində isə “Akropol”un təsviri var. Yuxarıda, yarımdairədə "Beynəlxalq Olimpiya Oyunları", aşağıda “Afinada 1896” yazılıb.



*İlk Olimpiya Oyunları medalı – Afina 1896*

II Olimpiya Oyunlarının xatirə mükafatları formalarına görə çox fərqli idi. Yay Olimpiya Oyunları tarixində ilk medallar düzbucaqlı idi. Parisdə Olimpiya Oyunları və Dünya Sərgisinin eyni vaxtda keçirilməsi səbəbindən mükafat lövhəsində və xatirə medalında "Olimpiya Oyunları" ifadəsi qeyd edilməyib. Mükafat lövhəsi və xatirə medalının şəkilləri fərqli olsa da, eyni metallardan, əsasən, bürüncdən hazırlanıb, mükafat lövhəsi gümüş təbəqəsi ilə örtülüb.

III Olimpiya Oyunlarından başlayaraq iki deyil, üç qalib mükafatlandırılaraq qızıl, gümüş və bürünc medallar verildi. III Olimpiya Oyunları da Missuri ştatının Sent-Luis şəhərində (ABŞ) keçirilən Dünya Sərgisinə təsadüf etdi. ABŞ hökuməti iştirakçıları 500-ə yaxın qızıl, 500 bürünc Olimpiya mükafatı və 1500 -dən çox xatirə medalı təltif etdi.

IV Olimpia Oyunlarının medallarının yaranma tarixi özünəməxsusluğu və orijinallığı ilə fərqlənir. Olimpiya Oyunları tarixində ilk dəfə olaraq 1908-ci ildə 1-ci yer tutan qaliblərin medalları təmiz qızıldan hazırlandı.

Britaniya Olimpiya Şurası çox kiçik-diametri 33 mm olan medallar istehsal etmək qərarına gəldi. Olimpiya Xartiyasının qaydaları pozularaq, medalların nəinki ölçüsü, həm də metalların tərkibi dəyişdirildi, ilk dəfə olaraq mükafatlar 583 əyarlı qızıldan hazırlandı. Medal böyük bir xatirə sikkəsinə bənzəyirdi.

Hər bir peşəkar idmançı üçün Olimpiya Oyunlarında istirak etmək, fərqlənmək karyerasının ən yüksək mükafatıdır. Bəs Olimpiya medallarının tərkibi hansı metallardan ibarətdir?

Hər şeydən əvvəl, 556 qramlıq Olimpiya qızıl medalı əslində yalnız 6 qram qızılla örtülüb, qalan hissə 925 əyarlı gümüşdən ibarətdir. Bu o deməkdir ki, medalın yalnız 1 faizi qızıldan ibarətdir. İkinci yer üçün verilən gümüş medal 925 əyarlı gümüşdən hazırlanıb. Bürünc medalı tərkibinin 95 faizi mis və 5 faizi sinkdir. Bəzi medal tələbləri bütün olimpiadalarda eyni olsa da, ev sahiblərinin özünəməxsus dəstlər yaratmaq və yaradıcılıqlarını nümayiş etdirmək imkanı var.

Tokiodakı Olimpiya medalları təkcə öz üslubları ilə fərqlənmir. Tarixdə ilk dəfə olaraq bütün Yaponiya sakinləri onların yaradılmasında iştirak ediblər. Tokio 2020 Medal Layihəsi çərçivəsində ölkə sakinlərinə Olimpiadanın bir hissəsi olmaq üçün unikal bir fürsət təqdim edilib.

Bildiyimiz kimi, qızıl, gümüş, retin kimi qiymətli metallar elektron cihazların istehsalında istifadə olunur. Bir qayda olaraq, bu qiymətli xammal köhnə telefonlar və noutbuklar ilə birlikdə zibil qutusuna atılır. Olimpiadan əvvəl yaponlardan xahiş olundu ki, köhnəlmiş telefon və noutbukları poçt şöbələrində və küçələrdə quraşdırılmış xüsusi qutulara yerləşdirsinlər. Qiymətli xammal toplama kampaniyası 1 aprel 2017 -ci il -dən 31 mart 2019 -cu ilədək keçirilib.

İki il ərzində Yaponiyada təxminən 79 ton müxtəlif istehlakçı elektronikası toplanıb. Ən böyük telekom operatoru NTT Docomo, 6 milyondan çox köhnə cib telefonu toplayıb.Yaponiyanın şəhər və kəndlərinin 90 faizi Tokio 2020 Medal Layihəsi kampaniyasına qatılıb.

Toplanan köhnə cihazlardan 32 kq qızıl, 3,5 kq gümüş və 2,2 kq bürünc əldə edilib ki, bu da 2020 Olimpiadası üçün 5000 medal hazırlamağa kifayət edib. İstehsal edilən çox sayda medal, bəzi idman növlərində, məsələn, avarçəkmə və ya estafet yarışlarında bir anda bir neçə idmançının iştirak etməsi və komanda idmanında əvəzedicilər də daxil olmaqla hər kəsin medal almasına imkan verib.

Tokio Olimpiadasının medalları ənənəvi Yapon dizaynlı cilalanmış daşlara bənzəyir. Olimpiya simvolizmi kimono motivləri ilə uzlaşır. Olimpiadanın təşkilatçıları və Tokio 2020 Medal Layihəsinin təşəbbüskarları ümid edirlər ki, onların nümunəsi yarışın gələcək təşkilatçıları tərəfindən nəzərə alınacaq.

Beynəlxalq Olimpiya Komitəsinin qaydalarına görə, yalnız mükafatlandırılan şəxs medal taxa bilər. Reqlamentə görə, digər insanlar bunu edə bilməz. Oyunların bütün iştirakçıları, eləcə də hakimlər və məmurlar hər olimpiada üçün xüsusi olaraq hazırlanan xatirə medalları ilə təltif olunurlar.

Əlbəttə, Olimpiya medalının dəyəri onun hazırlandığı metalların dəyərinin sadə hesablamaları ilə müəyyən edilə bilməz. Əyarından və qiymətindən asılılı olmayaraq medal idmançılar üçün ən yüksək mükafatdır.

***Leyla RƏŞİD,***
***“Xalq qəzeti***

Xalq qəzeti.- 2021.- 8 avqust.- S.5.